## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 37.01.

***Emilya Rafiq qızı Hüseynova,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNƏ HÖRMƏT YUXARİ SİNİF ŞAGİRDLƏRİNDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

***Эмиля Рафик гызы Гусейнова,***
*доктор философии по педагогике,*
*доцент Азербайджанского Государственного*
*Педагогического Университета*

# УВАЖЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ АКТИВНОЙ ГРАЖДАНСКОЙ ПОЗИЦИИ У СТАРШЕКЛАССНИКОВ

***Emilya Rafig Huseynova***
*PhD in pedagogy,*
*associate professor of Azerbaijan State Pedagogical University*

# RESPECT OF AZERBAIJAN'S STATEHOLD AS A MEANS OF FORMING AN ACTIVE CIVIL POSITION AT HIGH SCHOOL STUDENTS

**Xülasə.** Yeni pedaqoji təfəkkür şəraitində gənc nəslin mənəviyyatının zənginləşdirilməsi, əxlaqının saflaşdırılması, nümunəvi davranışa malik olması, Azərbaycan dövlətçiliyinə hörmət ruhunda böyüməsi özünün aktuallığı ilə diqqəti cəlb edir. Məktəblilər, o cümlədən yuxarı sinif şagirdləri azərbaycançılıq, dünyəvilik, vətənpərvərlik prinsipləri ilə bərabər eyni zamanda dövlətçilik prinsipinə əsasən tərbiyə olunmalıdırlar. Başqa sözlə, Azərbaycan dövlətçiliyinə hörmət yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması vasitəsi kimi nəzərdən keçirilməlidir. Təqdim olunan məqalədə bu kimi məsələlər diqqət mərkəzinə gətirilir. Atabəylər dövləti, Şirvanşahlar dövləti, Ağqoyunlar və Səfəvilər dövlətləri, Gəncə xanlığı nümunəsində Azərbaycan dövlətçiliyi məsələləri üzərində dayanılır, aparılmış sistemli, məqsədyönlü iş nəticəsində məktəblilər fəal vətəndaşlıq mövqeyinə yiyələnirlər.

***Açar sözlər:*** *dövlətçilik, Azərbaycan dövlətçiliyi, dövlətçiliyə hörmət, yuxarı sinif şagirdləri, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi*

**Резюме.** В условиях нового педагогического мышления обогащение нравственности молодого поколения, обладание его образцовым поведением, очищение духовности и воспитание его в духе уважения к государственности Азербайджана привлекают внимание своей значимостью. Школьники, в том числе старшеклассники, наряду с воспитанием принципов азербайджанства, секуляризма, патриотизма должны развиваться на основе принципов государственности. Иными словами, уважение азербайджанской государственности следует рассматривать как средство формирования активной гражданской позиции у старшеклассников.

В представленной статье исследуются данные проблемы. Вопросы азербайджанской государственности рассматриваются на примере государства Атабеков, Ширваншахов, Аггоюнлу, Сефевидов и Гянджинского ханства. В результате систематической и целенаправленной работы, школьники приобретают активную гражданскую позицию.

***Ключевые слова:*** *государственность, Азербайджанская государственность, уважение государственности, старшеклассники, гражданская позиция, активная гражданская позиция*

**Summary**. Under the conditions of new pedagogical thinking, the enrichment of the morality of the young generation, the possession of its exemplary behavior, the purification of spirituality and its upbringing in the spirit of respect for the statehood of Azerbaijan attract attention with their significance. Schoolchildren, including high school students, along with the education of the principles of Azerbaijanism, secularism, patriotism should be developed on the basis of the principles of statehood. In other words, respect for the Azerbaijani statehood should be considered as a means of forming active citizenship among high school students. This article explores these problems. Issues of Azerbaijani statehood are considered on the example of the state of Atabekov, Shirvanshahs, Aggoyunlu, Safavids and Ganja Khanate. As a result of systematic and purposeful work, schoolchildren acquire active citizenship.

***Keywords:*** *statehood, Azerbaijan statehood, respect for statehood, high school students, citizenship, active citizenship*

Yeni pedaqoji təfəkkür şəraitində gənc nəslin mənəviyyatının zənginləşdirilməsi, əxlaqının saflaşdırılması, nümunəvi davranışa malik olması, Azərbaycan dövlətçiliyinə hörmət ruhunda böyüməsi özünün aktuallığı ilə qarşıda dayanır. Məktəblilər, o cümlədən yuxarı sinif şagirdləri azərbaycançılıq, dünyəvilik, vətənpərvərlik prinsipləri ilə bərabər eyni zamanda dövlətçilik prinsipinə əsasən tərbiyə olunmalıdırlar. Heç də təsadüfi deyildir ki, "Gənclər siyasəti haqqında Azərbaycan Respublikası Qanunu"nda göstərilir ki, "Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbayjan xalqının tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması"na (1, s. 88) gənclər siyasətində başlıca prinsiplər kimi yanaşılır.

Gənclər siyasəti ilə bağlı Qanunda, həm də dövlət dilimizə və rəmzlərimizə hörmət olunması vacib məsələ kimi irəli sürülür.

Bütün bunlar böyük məktəb yaşlı şagirdlərin Azərbaycan dövlətçiliyinə hörmət ruhunda formalaşması məsələsi ilə sıx surətdə əlaqədardır.

Odlar yurdu Azərbaycan çox qədim dövlətlər ölkəsidir. Min illər bundan qabaq bu torpaqlarda Aratta, Manna, Midiya, İskit padşahlığı, Atropaten, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər və başqa bu kimi əzəli dövlətlər yaranmışdır. Daha sonralar Atabəylər (Eldənizlər), Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi qüdrətli və yenilməz dövlətlər meydana gəlmişdir.

Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyi formalaşdırmaq üçün Eldənizlər, yaxud Azərbaycan Atabəylərinin hökmdarlığı yada salına bilər.

Şagirdlərə məlumat verilir ki, sülalənin əsası Şəmsəddin Eldəniz tərəfindən qoyulmuşdur. O, xırda əmirlikləri özünə tabe edib tez bir zamanda öz hakimiyyətini bütün Azərbaycana yaymağa müvəffəq olmuş, eyni zamanda İraq Səlcuq sultanlığına da yiyələnmişdi.

1160-cı ildə "Böyük Atabəy" titulu alan Şəmsəddin Eldəniz böyük oğlu Məhəmməd Cahan Pəhləvanı özünün hacibi, kiçik oğlu Qızıl Arslanı da ordunun ali baş komandanı təyin etdi.

Azərbaycan Atabəylərinin torpaqları Şəmsəddin Eldənizin zamanında Arran, Azərbaycan, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan, Rey, Mosul, Kirman, Fars, Xuzistan, Axlat, Ərzurum və Marağanı özündə birləşdirirdi.

Şəmsəddin Eldənizin ölümündən sonra oğlu Məhəmməd Cahan Pəhləvan hakimiyyətə gəlmiş və onun dövründə sülalə xeyli möhkəmlənmişdi. Məhəmməd Cahan Pəhləvanın dövrü öz stabilliyi ilə diqqəti cəlb edirdi. Bu sabitlik mədəni sahələrin inkişafına şərait yaratmışdı.

Nizami Gəncəvi və Xaqani Şirvani kimi nəhəng dühalar Atabəylər dövründə yaşayıb yaratmışlar. Onların Atabəylərin sarayı ilə yaxın əlaqələri vardı.

Şagirdlər öyrənirlər ki, Atabəylərin hakimiyyəti illərində Arran və Naxçıvan-Marağa memarlıq məktəbləri inkişaf etmişdi. Bu sahədə Memar Əcəminin xidmətləri əvəzsizdir.

Eldənizlər dövründə Yusif ibn Küseyir türbəsi, Möminə Xatun türbəsi, Göy Günbəd türbəsi, Atabəylər məscidi və başqa memarlıq nümunələri meydana gəlmişdi.

Cahan Pəhləvan son dərəcə inzibatçı və son dərəcə tələbkar idi. Odur ki, dövlət idarəçilik sistemində möhkəm qayda-qanun yaranmışdı. O, 10 il hakimiyyətdə oldu. Bu illər ərzində Azərbaycan Atabəylərinin torpaqları xarici müdaxilə ilə qarşılaşmadı. Azərbaycan torpaqlarına

tez-tez hücum edən və dağıntılar yaradan gürcülərlə sülh bağlandı.

Qızıl Arslanın hakimiyyəti zamanı ara müharibələri dayandırıldı. Qızıl Arslan Azərbaycan atabəylərinin hökmranlığını qanuniləşdirdi.

Azərbaycanını qədim dövlətçilik tarixi vardır.

Yuxarı sinif şagirdlərinin **Şirvanşah I İbrahimin (1352-1417) dövlətçilik fəaliyyəti ilə tanış edilmələri də faydalıdır.**

Böyük məktəb yaşlı şagirdlər öyrənirlər ki, Dərbəndilər sülaləsinin banisi olan Şeyx I İbrahim 1382-1417-ci illərdə, ardıcıl olaraq 35 il Şirvanın şahı olmuşdur. O, **Kəsranilərin törəmələrindən olan ikinci Mənuçöhrün doqquzuncu nəslindən idi.**

Dərbəndilər IX ərsdə yaranmış Şirvanşahlar dövlətinin üçüncüsü olmaqla bərabər eyni zamanda tam türk əsilli sülalə idi. I İbrahimin babaları vaxtilə Dərbənd hakimləri olduqları üçün həm I İbrahim, həm də onun davamçıları Dərbəndilər adlandırılırdılar.

Şirvanşah I İbrahim möhkəm iradəli və nüfuzlu bir şəxs idi, özünün sadəliyi və xeyirxahlığı ilə Şirvan camaatının hörmət və rəqbətini qazanmışdı. O, elm və mədəniyyəti sevən və himayə göstərən qüdrətli sərkərdə, görkəmli dövlət xadimi səviyyəsinə yüksəlmişdi.

Şeyx I İbrahim hakimiyyətə gələn kimi ölkə daxilində qayda-qanun yaratmış, ticarət və sənətkarlığa geniş yer vermiş, vergi və mükəlləfiyyətləri qaydaya salmışdı. Şirvan camaatı qayda-qanunun bərpa edildiyini, məmurların zülmünün və özbaşınalığının aradan qaldırıldığını görərərək sevinirdi.

Şirvanşah I İbrahim yaxşı anlayırdı ki, camaatın gün-güzəranı nə qədər yaxşı olsa, dövlətin xəzinəsi də dolar. Dövlət varlananda onun müdafiə qüdrəti də artır.

Şeyx İbrahim Dərbəndi öz hakimiyyəti dövründə Teymur və onun varisləri ilə, həmçinin Toxtamış, Cəlairilər, Qaraqoyunlular və b. mübarizə aparmış, öz müstəqilliyini qoruyub saxlaya, Azərbaycan feodal xanlıqlarını qüdrətli bir dövlətdə birləşdirə bilmişdi.

İbrahim Moskva knyazları ilə də dostluq münasibətində idi. Onun göstərişi ilə on beş azərbaycanlı usta Moskvaya gedərək Kremlin tikintisində yaxından iştirak etmişdi.

Məhz I İbrahimin uzaqgörən siyasəti nəticəsində Şirvan uzun illər öz nüstəqilliyini qoruyub saxlaya bilmiş, onun torpaqları düşmən tapdağı altında qalmamışdı.

Şagird Simizər: "Şərq ölkələrini zəbt edərək cənubdan Azərbaycanın daxilinə doğru irəliləyən böyük fateh Əmir Teymurun qoşunları, şimaldan isə Qızıl Orda hökmdarı Qiyasəddin Toxtamış xanın həmlələri Şirvanın vəziyyətini gərginləşdirir. Ağıllı hökmdar, mahir diplomat olan Şeyx I İbrahim Dərbəndi hər iki təhlükənin Şirvan üçün nə kimi nəticələr verə biləcəyini dərindən götür-qoy edir. O, yaxşı başa düşürdü ki, Azərbaycanda vahid mərkəzləşdirilmiş dövlətin olmadığı bir şəraitdə tərəflərin hər ikisinə qarşı eyni zamanda mübarizə aparmaq mənasızdır. Hətta onların hər hansı biri ilə də qarşıdurma Şirvan üçün acı nəticələr verə bilər. Belə nəticələrin olmaması üçün bu qüvvələrdən biri ilə yaxşı münasibətlər qurmaq, sonra isə onun dəstəyi ilə digər təhlükəni dəf etmək olar" (2).

Şeyx I İbrahimin hakimiyyəti illəri ilə tanışlıq zamanı X sinif şagirdi Zaur sinfə və müəllimə müraciətlə deyir:

- Şirvanşah I İbrahimin hökmranlığı zamanı Şirvan güclü və müstəqil dövlət idi. Şirvan dövləti bir sıra qonşu ölkələrlə, o cümlədən Gürcüstanla, Dağıstanla müttəfiqlik və dostluq münasibətlərindəydi. Dərbənd və mahalı, Cənubi Dağıstanın Samur vadisindəki kənd və icmaları da Şirvanın siyasi asılılığı şəraitində idi.

Şeyx I Ibrahim görkəmli dövlət xadimi, sərkərdə və mahir diplomat kimi özünü təsdiq etmişdi. O, Şirvanı güclü və müstəqil dövlətə çevirmişdi. Qaraqoyunlu hökmdarı Qara Yusifdən vassal asılılığı sadəcə kağız üzərində idi. I İbrahimin siyasəti Azərbaycanın şimalını xilas etmək və dövlətçilik ənənələrimizi qorumaq idi.

Bəzi tarixi mənbələrdə göstərilir ki, Əmir Teymur Şirvana yürüş edəndə I İbrahim ölkəsini dağıntılardan qurtarmaq üçün özünü Əmir Teymurun qulu kimi tqələmə veerib. Bu nə dərəcədə önəmli sayıla bilər? Bu məsələyə aydınlıq gətirilməsini istərdim.

Müəllim:

-Bəli, mənbələrdə belə bir əhvalat təsvir edilir. Lakin bu, reallıqdan uzaq olan bir rəvayətdir.

Başqa bir şagird Nazim:

-Mən də sinif yoldaşım Zaurun sözlərinə şərikəm. Biz Şirvanşah I İbrahimin hakimiyyəti illərinə dair VII sinfin Azərbaycan tarixi dərsliyində "Hökmdarın müdrikliyi və yerli hakimin inadlı mübarizəsi" mətninin (3, s. 89-93) köməyilə məlumat almışıq. Həmin yarımfəsildə Zaurun söz açdığı hadisəyə toxunulmur. Mən ali məktəblər üçün "Azırbaycan tarixi" dərsliyini nəzərdən keçirmişəm. Şirvanşah I İbrahim barədə daha ətraflı məlumat almaq üçün. Oxumuşam: "Rəvayətə görə, Şirvanşah Teymurun hüzuruna gedəndə külli miqdarda cəvahirat və ipəklə birgə səkkiz qul aparıbmiş. Əmir Teymurun düşərgəsində İbrahimin karvanından yükü qəbul edən mehtər soruşub ki: "Qayda üzrə hədiyyənin üstündə doqquz qul verirlər, sən niyə səkkizini gətirmisən?" İbrahim deyib ki, "doqquzuncu qul özüməm". Guya Əmir Teymura xoş gələn bu olub" (4, s. 353).

Başqa bir şagird də söhbətə qoşulur:

-Mahmud İsmayılov Şirvanşah I İbrahimin həyatını və hakimiyyətdə olduğu dövrü ətraflı təsvir edən "İki od araslnda" romanını yazıb. Yoldaşlarımım dediklərini həmin romandakı hadisə və faktlar da təsdiq edir. Fikir verək: "Teymurləng danışmaqda davam etdi:

-Doqquz at, doqquz dəvə, doqquz xəncər, nə bilim... doqquz nə... hər şey doqquz dənə. Qullar da var, amma onlar səkkiz nəfərdir... Hədiyyələrin çox yaxşıdır. Amma mənə aydın deyil ki, nə üçün qullar doqquz yox, səkkizdir. Madam ki, o biri hədiyyələr doqquzdur, bu da doqquz olmalı deyildimi?

-Doqquz rəqəminin elə bir mənası yoxdur. Amma doqquz-doqquz peşkəş eləmək adətdir. O ki qaldı qullara, onlar da doqquzdur, qubleyi-aləm, səkkiz deyil, doqquzuncu qul mən özüməm.

-Mərhaba, mərhaba, oğlum! Mən çox zəkalı olmağını eşitmişdim. Sənin barəndə onsuz da fikrim çox yüksək idi. Bu gün mənə bir daha və artıqlamasilə əyan oldu ki, sən yüksək ağıl sahibisən. Sən bununla mənim ürəyimi ələ aldın. Ona görə yox ki, məni tərifədin, özünü mənə qul hesab elədin. Sən özünü qul hesab eləməklə, qul olmadın ki. Mən sənin məqsədini bilirəm. İstəyirsən ki, Şirvana girməyim. Sən bu məqsədinə yüksək ağlınla nail oldun. Sən Şirvanşah kimi qalmaqla mənimlə müttəfiklik eləmək istəyirsən. Mən səni yenidən Şirvanşah təyin edirəm. Qayıt məmləkətinə, Dərbənd qalalarının hasarlarını bərpa elə, Toxtamışım yeni yürüşlərinə hazır ol" (5, s. 171-172).

Şagird Zeynəb:

-Mənim yadıma Gəncə xanı Cavad xan düşdü. Rus generalı, gürcü knyazı Pavel Sisianov Qafqazda rus qoşunlarının komandanı təyin olunan kimi Tiflisdən Cavad xana məktub göndərir. Öz məktubunda ondan öz fəaliyyətinə dair qısa hesabat yazmağl tapşırır. Bundan başqa, Cavad xandan tələb edir ki, o öz oğlu Uğurlu xanı onun yanına şirov kimi göndərsin.

General Sisiyanovun saymazyana və kobudcasına irəli sürdüyü tələb Cavad xani hiddətləndirir və o, tələbi rədd edir. Anlayır ki, rus imperiyası xanlığın ləğv olunmasını planlaşdırır.

1803-cü il noyabrın 22-də ruslar Tiflisdən Gəncəyə doğru hərəkət edirlər. Cavad xan kömək üçün qonşu xanlıqlara müraciət edir. Onun müraciətinə cavab vermirlər. Qacar şahı Fətəli şah da köməyə gəlmir. Bu, Cavad xanı son dərəcə bərk qəzəbləndirir.

Gəncə itirildiyi təqdirdə bunun Azərbaycan, həmçinin Qacarlar üçün nə kimi nəticələr verəcəyini nə qonşu xanlar, nə də Fətəli şah təsəvvürlərinə gətirmirdilər. Fətəli şah Gəncənin köməyinə gəlsəydi, Cavad xan rusların cənuba gedən yolunu birdəfəlik və həmişəlik kəsərdi.

Gəncə xanı ilə bacara bilməyəcəyini görən general Sisianov imperatordan hərbi kömək istəir. Beləliklə, Dağıstan alayları onun sərəncamına verilir. General Sisianov Gəncəni mühasirəyə alır. Qala aramsız şəkildə top atəşinə tutulur. Evlər, tikililər, saraylar, memarlıq abidələri bir-birinin ardınca dağıdılır. Hadisələrin şahidi olan rus döyüşçüsü sonralar yazırdı: "Su boruları insan cəsədləri ilə dolmuşdu, şəhər sakinləri məcbur olub bu sudan içirdilər. Xəstəlik tüğyan edirdi. Buna baxmayaraq, Cavad xan təslim olmurdu".

General Sisianov Cavad xana məktub göndərərək şəhərin təslim olunmasına dair ultimatum verir. Məktubda təslim şərtləri də göstərilirdi:

"1. Cavad xan Gəncəli tabeliyindəki bütün əhali ilə birgə ümumrusiya padşahının təbəəliyinə and içir;

2. Qala tamamilə təmizlənir və ora rus qoşununun topları, hərbi sursatı yerləşdirilir;

3. Cavad xan Gəncəli Rusiya imperiyasının tabeliyində olaraq əvvəlki ixtiyarla öz əra-

zisini idarə edir və Rusiyaya ildə 20 min manat xərac verir. Bu maddələri imzalayan zaman 1804-cü ildə həmin məbləği təcili ödəyir;

4. Qaladakı və Şəmşəddil yolundakı ordunu ərzaqla təmin edir;

5. Şəmşəddilin və onun əyalətinin əhalisini sıxışdırmaq olmaz, çünki onlar artıq Gürcüstan hökumətinin idarəsinə keçirlər;

Yuxarıdakılara sədaqətlə əməl etmək üçün Cavad xan Gəncəli öz oğlu Hüseynqulu ağanı Gürcüstanın baş idarəedicisinin yanında həmişəlik qalmaq üçün əmanət verir" (6).

Şərtlər son dərəcə təhqiramiz idi. Cavad xan kimi mərd, yenilməz, vətənpərvər şəxs həmin şərtləri heç vəchlə qəbul edə bilməzdi. Odur ki, Sisyanova yazır: "Sən Gəncəyə yalnız mənim meyitimin üzərindən girə bilərsən. Başa düşürsənmi? Ancaq mən öləndən sonra, başqa heç cür" (6).

Qüdrətli Azərbaycan sərkərdəsi, dövlət xadimi Cavad xan Gəncəni 1786-cı ildən etibarən idarə edirdi. Onun rəhbəliyi ilə gəncəlilər rus qoşunlarına 1 aydan çox müqavimət göstərdilər. Cavad xan 1804-cü il yanvarın 3-dən 4-nə keçən gecə general Pavel Sisianovun komandanlığı altında rus işğalçı ordusu ilə qeyri-bərabər döyüşdə öz oğulları ilə birlikdə qəhrəmancasına həlak oldu.

Şagird Zeynəb sözünə davam edərək dedi:

- Cavad xan XVIII əsrin sonlarında, XIX əsrin əvvəlində mürəkkəb hadisələr fonunda fəal siyasi fəaliyyəti ilə başqa Azərbaycan xanlarından fərqlənirdi. Dövlət üçün təhlükə olduqda Azərbaycan, Dağıstan və Gürcüstan hakimləri nin vahid cəbhədən çıxış etmək meyllərindən məharətlə faydalanardı.

Cavad xan düşmənə tabe olmur, son damla qanına qədər vuruşur, bu müharibədə canından və övladlarından da keçir. Bəs Şirvanşah I İbrahim nə üçün Əmir Teymurun qarşısında acizləşir, canın qurtarmaq üçün "doqquzuncu qul mən özüməm" deyir. Bu, bir hökmdara yaraşan sifətdirmi?

X-Xİ sinif şagirdləri fəal müzakirəyə başlayırlar.

Şagird Elnur:

-Şirvanşah Əmir Teymurla söhbətində diplomatik gediş edir. Özünü 9-cu qul kimi qələmə verməkdə məqsədi Şirvanın müstəqilliyini qorumaqdır. O bunu öz canını qurtarmaq üçün etmir. Şirvan torpaqlarının işqalına yol verməmək, evlərin, abidələrin dağıdılmaması, əhalinin qılıncdan keçirilməməsi üçün edir.

Əmir Teynurun Şirvanşaha dediklərini yada salaq: "Sən özünü qul hesab eləməklə, qul olmadın ki. Mən sənin məqsədini bilirəm. İstəyirsən ki, Şirvana girməyim. Sən bu məqsədinə yüksək ağlınla nail oldun".

Elnur nəticəyə gəlir: "Məncə, I İbrahimin hərəkəti doğru-düzgündür".

Şagird Zahid:

-Mən səninlə razılaşmıram.

Müəllim nəzərdən keçirilən məsələni ümumiləşdirir:

-Yadınızda varsa, bayaq sinif yoldaşınız Nazim ali məktəblər üçün "Azərbaycan tarixi" dərsliyinə müraciət etdi. Əmir Teymurun yanında Şirvanşahın özünü qul kimi qələbə verməsindən danışılarkən fikir verdinizmi, yazılmışdı, "rəvayətə görə". Şirvamşah I İbrahimin Əmir Teymurla görüşünə dair bəzi rəvayətlər var. Həmin əhvalat rəvayətlərdən biridir. Əslində Şirvanşah I İbrahim özünü Əmir Teymura qul kimi təqdim etməyib. Bu versiyanı gəlin birdəfəlik və həmişəlik unudaq. Şirvanşah I İbrahim Əmir Teymurun ən yaxın müttəfiqi idi. Akademik Ziya Bünyadov və professor Yusif Yusifovun elmi redaktoru olduqları ali məktəblər üçün "Azərbaycan tarixi" dərsliyində həmin iki hökmdarların görüşünün başqa variant da diqqət mərkəzinə gətirilib. Lakin biz nədənsə o variantı deyil, bu "qul"la bağlı variantı yada salırıq. Gəlin "Azərbaycan tarixi" dərsliyinə nəzər salaq: "Başqa bir salnaməçi yazır ki, hədiyyələrin üstündə şah, Nizaminin yeddi gözəli timsalında yeddi dünya gözəli aparıbmış. Əmir Teymur hədiyyələr qoyulan çadırda, yeddi rəng tüll altında dayanmış gözəllərə valeh olub və elə ona görə də İbrahimdən xoşu gəlib (4, s. 353)

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Z. Əliyev "I İbrahim Əmir Teymurun qəlbinə necə yol tapıb?" məqaləsində yazır: "Şirvanşah "Mən sənin qulunam" deməyib". Bizim tarixçilər bu görüş barədə Şərafəddin Əli Yəzdin "Zəfərnamə" əsərinə istinad edirlər. ...Bu faktı yazan Əmir Teymurun yanında olan bir əlyazmaçı yazmağa məcbur idi. Əslində Şirvan kimi böyük bir imperiyaya başçılıq edən I İbrahiş özünü əsla özünü qul kimi qələmə verməzdi. Bu hadisəni yozan bizim tarixçilər Şirvanşahın kiminsə qabağında "qul" olmasını önə çəkərək dövlətçilik tariximizzə ləkə

salmağa cəhd edirlər. Əslində hadisə belə olub. Teymur Toxtamışa qarşı çoxtərəfli strateji müharibə aparırdı. Onun Qərbdə, xüsusilə İldırım Bəyazidə qarşı apardığı müharibəsində Şirvan xüsusi ilə vacib idi. Olduqca vacib streteji məntəqə olan Dərbənd keçidinə nəzarət edən Şirvanşahlar Teymur üçün əvəzedilməz müttəfiq idi. Teymurun Yaxın Şərqdə apardığı müharibə zamanı Toxtamışın ona arxadan zərbə endirməsi ehtimalı olduqca yüksək idi. Eyni zamanda Teymur Qızıl Ordaya Xəzər dənizinin Şərq tərəfindən yürüş edərkən Toxtamış Dərbənd keçidi vasitəsi ilə onun Azərbaycandakı və İrandakı mülklərinə zərbə endirə bilərdi, necə ki, Təbrizi tutaraq etdi də. Buna görə xüsusi amansızlığı ilə tanınan Teymur Şirvana basqından çəkinirdi. Çünki zəif Şirvan Toxtamışın Dərbənd keçidinə nəzarət etmək niyyətinə qarşı çıxa bilməzdi. Teymurla I İbrahimin ittifaqı bununla bağlı idi. Toxtamışın 90 minlik ordusu isə Teymur üçün təhlükə idi. Bu təhlükənin qarısını almaq üçün Şirvanşah ona od və su kimi lazımlı idi.

Ona görə Əmir Teymur Bərdədə olanda Şirvanşahla görüşmək üçün ona dəvət göndərir. Şirvanşahın baş vəziri Əbu Yezid buna qarşı çıxaraq I İbrahimə bir müddət dağlara çəkilməyi məsləhət görsə də, o bunu qəbul etmir və Kür çayı sahillərində Teymurun Bərdə yaxınlığındakı qərargahında onun görüşünə gedir” (7).

Bəzi əyanlar bu qənaətdə idilər ki, Şirvanşah I İbrahim gərək özünün yaxın adamları ilə dağlara çəkilə. Fikirləşirdilər ki, belə olan təqdirdə Şirvanı virana qoyulsa da, heç olmasa Şirvanşaha bir xətər toxunmaz. Onların təklifləri I İbrahimin xoşuna gəlmədi. Bütün bunlar şaha yaltaqlanmaqdan başqa bir şey deyildi, onun rəğbətini qazanmaq istəyirdilər. Bunu çox yaxşı başa düşən İbrahim öz-özünə düşündü: "Bu əyanlar özlərini gicliyə vurublar. İndiyə kimi məni tanımayıblar? Görün mənə nə təklif edirlər: gizlənməyi. Anlamırıar ki, Şirvana dəyən xətər mənə dəyir. Mən dağlara çəkilsəm, tarixdə qorxaq Şirvanşah kimi qalaram. Bunu isə, istəmirəm

I İbrahim Teymurun adına xütbə oxutdurur və pul kəsdirdikdən sonra qiymətli hədiyyələrlə Bərdəyə gəlir. Müasirləri yazırdı ki, Şirvanşah monqol ənənəsinə görə “tokkuz” – doqquz qiymətli hədiyyə gətirir. Bu hədiyyəyər içərisində İbrahim Mizami Gəncəvinin “Yeddi gözəl” timsalında yeddi dünya gözəli aparıbmış. Əmir Teymurun hədiyyələr qoyulan çadırda yeddi rəng tül altında dayanmış gözəllərə valeh olub və elə buna görə də İbrahimdən xoşu gəlib.

I İbrahim Dərbəndi o qədər də narahat deyildi. Bilirdi ki, onun Əmir Teymura ehtiyacı olduğu kimi, Teymurun da ona ehtiyacı var. Şirvanşah İbrahimin Dərbənd qalasında minlərlə süvaridən ibarət ordusu vardı. Toxtamış xanla müharibədə həmin ordu Teymura lazım ola bilərdi. Bütün bunları düşünən Şirvanşah Əmir Teymurun görüşünə inamlı və cürətli gedirdi.

O, Teymurun hüzurunda olarkan da öz ləyaqətini və mənliyini gözləmiş, qürurlu olmuşdu. Şirvanşah I İbrahimlə söhbətindən məmnun qalan Əmir onu Şirvan və Şamaxının hökmdarı elan etdi. Onlar arasındakı bərqərar olan hökmdar-vassal münasibətləri illər ötdükcə dostluğa və müttəfiqliyə çevrildi.

Şirvanşah I İbrahim Teymurla müttəfiklikdən istifadə edərək gizli şəkildə Azərbaycan torpaqlarını birləşdirmək siyasəti yeridirdi. O, Teymurun hakimiyyətinddən öz məqsədləri üçün istifadə etdi. Birincisi, o, Teymurla Toxtamış arasındakı ədavətdən faydalanaraq, Şirvanı düşmən hücumlarından qurtardı. Şirvan daxilən müstəqil qaldı. Şirvanşah I İbrahim öz təsirini Qarabağ, Şəki, Dərbənd və Qəbələyə yaymağa nail oldu.

İkincisi, Teymur İbrahimi Dərbənddən Kür çayının sahilinə qədər Şirvan vilayətinin hakimi təyin etdi.

Teymurun ölümündən sonra I İbrahim Gəncəni, sonra isə Qarabağın çox hissəsini Şirvanşahlar dövlətinə birləşdirdi. Bir sıra feodallar onunla ittifaqa girdilər.

Şirvanşah I İbrahim dillema qarşısında idi: Əmir Teymurla, yoxsa Toxtamışla ittifaqa girməli? O, müttəfiq kimi Əmir Teymuru seçdi. İ İbrahimin qənaətincə, "Qızıl Orda hökmdarı ilə yaxınlaşmaq təhlükəli və səmərəsiz siyasət olar. Çünki Şirvan Qızıl Orda ilə həmsərhəddir. Toxtamış xan mənim ərazimə soxulsa, onun qılıncı daim başımın üstündə olacaq. Bu naxələfin hakimiyyəti altına düşmək Şirvanşahların süqutu deməkdir. Teymur isə xeyli uzaqdan gəlib. Maverünnehrdə otura-otura o, Azərbaycanı idarə edə bilməz. Burada ona etibarlı bir adam lazım olacaq. O, Şirvanı ələ keçirsə belə, burada uzun müddət möhkəmlənə bilməyəcək. İndi

əsas məsələ çalışıb Teymurun etbarını qazanmaqdır. Əlbəttə, bir müddət ondan asılı vəziyyətdə olacağam. Onun ölümündən sonra isə Allah kərimdir. Hər halda, dövləti qoruyub saxlamaq üçün bundan başqa yol yoxdu" (2).

Şirvanşah İbrahim şəxsiyyətləri dəyərləndirə bilməkdə mahir idi. Neçə illər idi ki, Toxtamışın hərəkətlərinə göz qoyurdu. Toxtamış sabit qədəm hökmdar deyildi. Bu səbəbdən ona bel bağlamaq olmazdı. Toxtamış hətta onu hakimiyyətə gətirən Əmir Teymura da xəyanət etmişdi. Toxtamış türk əsilli idi. O, verdiyi vədi, bağladığı müqaviləni yerinə yetirmirdi. Bir vaxt Qızıl Orda hökmdarı sülh müqaviləsi bağlamaq bəhanəsi ilə Təbriz əhalisini aldatmış, xaincəsinə öz vədinə xilaf çıxmışdı.

Odur ki, Şirvanşah I İbrahim Toxtamışın zərbəsinə tuş gəlməmək üçün onunla ehtiyatlı olmalı idi.

Teymur isə sözü bütöv və müdrik bir şəxsiyyət və hökmdar kimi tanınırdı. Sözü bütöv şəxs idi, dostluğa dəyər verir, xəyanəti xoşlamırdı. Ona inanmaq, etibar etmək mümkün idi. Buna Əmir Teymurun etimadını qazanmaqla nail olmaq olardı.

Yuxarı sinif şagirdlərinə Azərbaycan dövlətçiliyinə hörmətin aşılanmasında və bu əsasda onlarda fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında Ağqoyunlu hökmdarı Uzun Həsən və Səfəvilər dövlətinin başçısı I Şah İsmayılın nümunəsi də önəmlidir. Uzun Həsən Ağqoyunlu hökmdarı olaraq müxtəlif ölkələrə elçilər göndərib, elçilər qəbul edərdi. O, 500 il əvvəl Azərbaycanda toxuculuq sənətini inkişaf etdirmiş, böyük diplomatik uğurlara imza atmışdı. Uzun Həsən sərkərdəlik və dövlət başçısı qabiliyyəti, uzaqgörənliyi, cəsurluğu, müdrikliyi, qorxmazlığı və mətinliyi ilə çox ölkələrdə tanınırdı.

I Şah İsmayıl Azərbaycan torpaqlarını birləşdirməyə müvəffəq oldu. O, mərkəzləşdirilmiş və qüdrətli dövlət yaratdı. Onun dövründə Azərbaycan dili Dərbənddən İran körfəzinə kimi böyük bir ərazidə dövlət dilinə çevrildi.

**Problemin aktuallığı.** Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması məqsədilə müxtəli vasitələrin köməyi diqqət mərkəzinə gətirilir. Bu fikir baxımından Azərbaycan dövlətçiliyinə hörmət əsas götürülür.

**Problemin yeniliyi.** Azərbaycan dövlətçiliyinə hörmət yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması vasitəsi kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə tarix müəllimləri, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat:

1. “Gənclər siyasəti haqqında Azərbaycan Respublikası Qanunu”. http://www.e-qanun.az /alpidata/framework/data/1/c_f_1619.htm

2. F. Qaraoğlu. Tarixdə iz buraxanlar: I İbrahim Dərbəndi. http://www.baki-xeber.com/ siyaset/61175.html

3. Y. Məmmədov, S. Ağayev, B. Xubyarov və b. Azərbaycan tarixi: VII sinif üçün dərslik. Bakı: Təhsil, 2016, 128 s.

4. Z.M. Bünyadov, Y.B. Bünyadov. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild. Bakı: Azərnəşr, 1994, 688 s.

5. Mahmud İsmayılov. İki od araslnda ( roman). Bakı: Gənclik, 1987, 312 s.

6. Cavad xan. https://az.wikipedia.org/wiki/Cavad_xan

7. Z. Əliyev. “Şirvanşah “Mən sənin qulunam” deməyib”. I İbrahim Əmir Teymurun qəlbinə necə yol tapıb? https://vaxt.az/?name=xeber&xeber_id=14301

**E-mail**: emilya.huseynova95@gmail.com
**Rəyçilər:** ped.ü.elm.dok., prof. **A.N. Abbasov,**
ped.ü.elm.dok., prof**. F.N. İbrahimov**
**Redaksiyaya daxil olub**: 14.11.2018